# Vergi islahatlarının istiqamətləri və qarşıda duran vəzifələr

Heydər Əliyevin rəhbərliyi altında 2000-ci illərin əvvəllərindən formalaşdırılmasına başlanan milli vergi sistemi çox sürətli və dinamik inkişaf yolu keçib. Əgər ilk dövrlərdə əsas diqqət milli vergi qanunvericiliyinin təkmilləşdirilməsinə və vergi ödəyicisinə xidmət sferasının qurulmasına yönəlmişdisə, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi altında son 10 ildə vergi sistemi əsaslı şəkildə modernləşdirilib. Məsələyə daha konkret yanaşsaq deyə bilərik ki, vergi inzibatçılığı kökündən dəyişdirilərək beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilib, vergi orqanları ilə vergi ödəyiciləri arasında texnoloji baxımdan mükəmməl elektron əlaqələrinin yaradılması, geniş təhlil bazasına malik informasiya sistemlərinin qurulması istiqamətində tədbirlər həyata keçirilmiş və belə tədbirlər davam etməkdədir. Növbəti tədbir cari ilin avqustun 5-də Vergilər Nazirliyində Azərbaycan Respublikası Prezidentinin "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 4 avqust 2016-cı il tarixli 2257 nömrəli Sərəncamında verilmiş tapşırıqların icrası ilə bağlı Vergilər Nazirliyinin qarşısında duran vəzifələrə həsr olunmuş və bu barədə geniş kollegiya iclası keçirilib.

İclasda çıxış edən Azərbaycan Respublikasının vergilər naziri, birinci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında son 10 il ərzində vergi orqanları tərəfindən sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi, investisiya qoyuluşlarının stimullaşdırılması, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin qarşılıqlı etimada əsaslanan çevik və şəffaf mexanizmlər əsasında qurulması məqsədilə e-bəyannamə və e-VHF sisteminin tətbiqi, sahibkarlıq fəaliyyəti subyektlərinin "bir pəncərə" prinsipi üzrə qeydiyyatı, sahibkarların elektron qeydiyyatı, elektron xidmətlərin sayının artırılması, e-auditin tətbiqi istiqamətində bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilib. Ümumilikdə istər vergi qanunvericiliyinin, istərsə də vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə mühüm addımlar atılıb.

Ötən dövr ərzində görülən işlərin nəticəsində 2015-ci il ərzində dövlət büdcəsinə vergi daxilolmalarının ümumi məbləği 7118,2 milyon manat, o cümlədən neft sektorundan daxilolma 2089,9 milyon manat (29,4%), qeyri-neft sektorundan daxilolma 5 milyard 028,3 milyon manat (70,6%) təşkil edib. 2016-cı ilin ilk yarımili ərzində bu göstəricilər müvafiq olaraq 3 milyard 190,1 milyon manat, o cümlədən qeyri-neft sektoru üzrə 2 milyard 495,4 milyon manat (78,2%) təşkil edib ki, bu da ötən ilin müvafiq hesabat dövrü ilə müqayisədə qeyri-neft sektorundan daxilolmaların 9,7% artdığını göstərir.

F. Məmmədov qeyd edib ki, Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2016-cı ilin birinci yarısında dərin iqtisadi islahatlar aparıldığını, ixracın stimullaşdırılması, investisiya cəlb edilməsi üçün böyük güzəştlər tətbiq olunduğunu bildirib. Cənab Prezident nitqində ölkə iqtisadiyyatındakı real vəziyyəti təhlil edərək, vergi sahəsində də ciddi islahatlar aparıldığını, bunu insanların, iş adamlarının gördüyünü, vergi orqanları tərəfindən proqnozdan 2 faiz artıq vergi yığılmasının təmin edildiyini, bununla yanaşı büdcəyə daha çox vəsait toplanması üçün böyük ehtiyatların olduğunu qeyd edib və bu ehtiyatların aşkarlanması, aparılan vergi islahatları nəticəsində ilin sonuna qədər bu sahədəki vəziyyətin tam şəffaflaşdırılması ilə bağlı konkret tapşırıqlar verib.

Vergilər naziri Azərbaycan Respublikasının Prezidentinin imzaladığı "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 4 avqust 2016-cı il tarixli, 2257 nömrəli sərəncamına toxunaraq bildirib ki, həmin sərəncamla 2016-cı ildə vergi sahəsində aparılacaq islahatların əsas istiqamətləri təsdiq edilib. Bu Sərəncam cari ildə vergi inzibatçılığı sahəsində əhəmiyyətli tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bu tədbirlərə və vergitutma bazasının genişləndirilməsi, vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığının təkmilləşdirilməsi, nümunəvi vergi ödəyicilərinin müəyyən edilməsi, vergi yoxlamalarının qanunla müəyyən edilmiş tələblərinə əməl olunmaqla qısa müddətdə başa çatdırılması, elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin artırılması, risk qiymətləndirilməsi sisteminin yaradılması, vergi bəyannamələrinin formalarının təkmilləşdirilməsi istiqamətində vergi islahatlarının davam etdirilməsi və s. aiddir.

Vergilər naziri Fazil Məmmədov ölkə başçısının vergi islahatlarının həyata keçirilməsi istiqamətində verdiyi tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsi, o cümlədən Sərəncamda müəyyən edilmiş islahatların həyata keçirilməsi üçün vergi orqanlarının fəaliyyət istiqamətlərinə uyğun tədbirlər planının təsdiq edilməsinə zərurət yarandığını vurğulayıb.

Kollegiya iclasında vergilər nazirinin müavinləri, o cümlədən struktur vahidlərinin rəhbərləri görülən işlər barədə məruzələrlə çıxış edib, sərəncamdan irəli gələn məsələlərlə bağlı görülməli işlər ətrafında müzakirələr aparılıb, cari ilin sonuna kimi real vergi potensialının dəqiqləşdirilməsi və bu sahədə şəffaflığın təmin edilməsi, vergi bazasının genişləndirilməsi, habelə uçot və risklərin idarə edilməsi sahələrində nəzarətin gücləndirilməsi və vergi ödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi sahəsində görülən işlərin keyfiyyətinin yüksəldilməsi sahəsində mövcud vəziyyət ətraflı müzakirə edilib.

Aparılan müzakirələrin nəticəsi olaraq Vergilər Nazirliyinin Kollegiyası tərəfindən Azərbaycan Respublikasının Prezidentinin "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 4 avqust 2016-cı il tarixli Sərəncamında verilən tapşırıqların icrası ilə bağlı "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri və vergi inzibatçılığının təkmilləşdirilməsi barədə Tədbirlər Planı" qəbul edilib.

Kollegiya iclasında yekun nitqi ilə çıxış edən vergilər naziri Fazil Məmmədov Tədbirlər Planından irəli gələn məsələlərin icrası, habelə vergi orqanlarının qarşısında qoyulmuş vəzifələrin icrasının təmin olunması ilə bağlı müvafiq tapşırıqlar verib.

**Analitik-informasiya şöbəsi.**

---

## Yeni dərs ili qarşısında

# Yekunlar və görüləcək işlər

Bu gün ölkəmizin hər yerində olduğu kimi Qəbələ rayonunun ümumtəhsil məktəblərində də ötən tədris ilinin nəticələri təhlil edilir, qarşıdan gələn yeni dərs ili üçün görüləcək işlər müəyyənləşdirilir.

2015-2016-cı tədris ili rayonumuzun təhsil işçiləri üçün heç də az uğurlu olmamışdır. Ötən tədris ilində rayonumuzda 68 ümumtəhsil məktəbi, o cümlədən 53 tam orta, 12 ümumi orta, 3 ibtidai məktəb fəaliyyət göstərmiş, 16.087 şagird 1001 sinif komplektində birləşdirilmiş, onların təlim-tərbiyəsi ilə 2.266 müəllim məşğul olmuşdur.

XI sinfi bitirən 1419-məzun tam orta təhsil haqqında sənəd almışdır. Onlardan 3 nəfəri məktəbi Qızıl medalla bitirmişdir. IX sinif məzunlarından 14 nəfəri ümumi orta təhsili Fərqlənmə şəhadətnaməsi ilə başa vurmuşdur.

Ötən tədris ilində fənn olimpiadalarının nəticələri də şagirdlərimiz üçün uğurlu olmuşdur. Olimpiada iştirakçılarımızdan 2 nəfəri qızıl, 1 nəfəri gümüş, 1 nəfəri isə bürünc medal qazanmışdır. Tam orta məktəbi bitirən gənclərdən 760 nəfəri respublikamızın ali məktəblərinə sənəd vermiş, 424 nəfər qəbul olunmuşdur. Onlardan 36 nəfəri 600-dən çox bal toplamışdır.

Hazırda bütün məktəblərdə yeni dərs ilinə hazırlıq işləri aparılır.

Məktəblərin yanacaqla təmin olunmasına diqqət artırılmışdır. Eyni zamanda Tikanlı kənd ümumi orta, Şəhər 2, 3, 4 saylı tam orta, Zərgərli ibtidai məktəblərində, o cümlədən Qəbələ Rayon Təhsil Şöbəsinin mühasibatlığında cari təmir işləri aparılmışdır. Məktəblərin yeni dərs ilinə hazırlığı hal-hazırda da davam etdirilir.

Nazirlər Kabinetinin məlum sərəncamı ilə 2016-2017-ci dərs ilindən başlayaraq ümumtəhsil məktəblərində məktəbə hazırlıq qrupları fəaliyyətə başlayacaqdır. Həmin sərəncama 15 sentyabr 2016-cı il tarixə kimi 5 yaşı tama olan uşaqların 55 faizinin məktəblərin hazırlıq qruplarına cəlb edilməsi nəzərdə tutulmuşdur. Bu zaman uşaq sayı çox olan, normal şəraiti, kadr potensialı olan məktəblərə üstünlük veriləcəkdir.

Nazirlər kabinetinin məktəbə hazırlıq qruplarının yaradılması ilə əlaqədar verdiyi sərəncamla bağlı valideynlər arasında maarifləndirmə işləri aparılmışdır. Rayon üzrə təxminən 221 nəfər uşağın ləzgi və udin məktəblərində məcburi hazırlıq qruplarına cəlb olunması nəzərdə tutulmuşdur. Qalan 1386 nəfər uşaqdan 668 nəfəri, yəni 54,9 faizinin məktəblərin hazırlıq qruplarına qəbul edilməsi planlaşdırılmışdır. Hazırlıq qruplarının fəaliyyət göstərəcəyi məktəblər, həmçinin orada məşğələ aparacaq müəllimlər haqqında məlumatlar Təhsil Nazirliyinə təqdim olunmuşdur.

Məktəblilərin dərsliklə təminatında, eləcə də məktəb kitabxanaları fondunun zənginləşdirilməsi istiqamətində xeyli iş görülmüşdür. Yeni dərs ilində ümumtəhsil məktəblərinə 136 adda 65.244 ədəd dərslik verilmişdir ki, onların dəyəri 144.544 manat olmuşdur. I-V-IX siniflər 100 faiz, II-III-VII siniflər isə 38-40 faiz yeni dərsliklərlə təmin edilmişdir. Təhsil Nazirliyindən şöbəyə göndərilmiş dərsliklər bölgü əsasında məktəb şəbəkəsində olan şagirdlərin sayına uyğun məktəb kitabxanalarına təhvil verilmişdir.

***Qəbələ Rayon Təhsil Şöbəsi.***